# QARABAĞ ƏDALƏTİ KƏSKİN QILINCA BƏNZƏR, ONU HAQSIZ TUTANIN ƏLİ KƏSİLƏR

**Çoxdan gözlədiyimiz gün yetişdi: 10 noyabr - qələbə günümüz kimi tarixləşdi. Qürurumuzu çeynəyən düşmən layiq olduğu cavabı aldı. Qranit iradəmiz, pozulmaz milli birliyimiz və yenilməz ordumuzun dağıdıcı zərbələri qarşısında mənfur düşmən diz çökdü, təslim oldu. Hərbi üstünlüyümüz bizə siyasi qələbə də qazandırdı.**

Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan 10 noyabr 2020-ci il tarixli razılaşmaya əsasən Ermənistanın tam və qeyd-şərtsiz kapitulyasiyası rəsmiləşdi. Dünyaya bəyan edildi ki, Dağlıq Qarabağa heç bir status verilmir, erməni işğalı altında olan bütün ərazilər qısa müddət ərzində azad edilir, Ermənistanın hərbi birləşmələri Qarabağdan son nəfərə qədər çıxarılır, 870 min azərbaycanlı məcburi köçkünümüz doğma Qarabağa və ətrafdakı 7 rayona qayıdır, sərhədlərimiz tam bərpa edilir, Naxçıvanımıza tarixi gediş yolu açılır. Layiq olmasalar da, ermənilərə üç rayonumuzda yaşamaq hüququ verilir. Bu güzəşti yalnız bizim kimi humanist siyasət yürüdən xalqlar verə bilər. Tam əmin ola bilərik ki, həmin razılaşma ilə bağlı olaraq yaradılan sülhməramlı korpusa türk hərbçiləri də daxildir. Söz yox ki, bu öhdəliklər pozularsa, savaş meydanında əksər hissəsi gəbərmiş düşmən daha çox bəlalara düçar olacaq.

Təbii ki, sülh razılaşması qəhrəman döyüşçülərimizin misilsiz hünəri hesabına başa gəldi. 30 illik həsrətə son qoyuldu. Vaxtilə süni və gülünc faktlarla ordumuzu lağa qoyan faşist erməni bandasını, habelə dünyanın hər yerindən yalvarışla çağırılan erməni muzdlularını beton özüllü yeraltı qazmalarda elə bombardman etdik ki, damarlarında qanları dondu. Dığalara təkmil savaş dərsləri verdik. Dağlı relyefi hərtərəfli vuruşmaq üçün münasib hesab edilməyən doğma Şuşamız modern silah və texnikaların gücü ilə deyil, igid cəngavərlərimizin əlbəyaxa döyüşü sayəsində daşnak tör-tökünlərindən təmizləndi. Savaş novatorluğu, misilsiz döyüşçü fəndləri ilə dünyanı heyran etdik. 44 günlük vuruş prosesində hər atış dəqiqələrində qorxaqcasına qaçaraq "siçovul yuvasına" qısılan, əksər əsgərləri istər qaya, istər torpaq səngərində bizə tutarlı cavab verə bilməyərək cəhənnəmə vasil olan, habelə silahı, sursatı, suyu-çörəyi qısa vaxt ərzində yoxa çıxan işğalçı Ermənistan ordusu qarşımızda baş əyməyə məcbur oldu, Azərbaycan Ordusu isə sürəkli alqışlara layiq görüldü.

Nikol Paşinyanın dəmdəməki siyasəti nə beynəlxalq arenada, nə də müharibə səhnəsində istədikləri nəticəni vermədi. Qaniçən mövqe tutaraq törədilən siyasi sərgüzəştlər, sərgilənən mənasız sülh danışıqları onlara yalnız əlacı tapılmayan dərdlər, min bir əzab gətirdi. Doğrudan da, hiylə və xəyanət ağacının barı müsibət və fəlakət olar. Ermənistan dövlətinin əzazil hərbi-siyasi rəhbərliyinin bütün dünyanı dolaşan hiyləsi baş tutmadı, əksinə erməniləri acınacaqlı bir duruma qərq etdi. Həddindən artıq müştəbehlik edərək sülh təklifimizə "naz edən" xain qonşumuz dəmir yumruğumuz altında zavallı bir görkəmə düşdü. Ehtimal ki, bu acı məğlubiyyət "böyük Ermənistan" xülyasının müsibətli sonluğu kimi onları bir daha qələt etməməyə sövq edəcəkdir. Əlbəttə, əgər insan kimi düşünə bilsələr!...

Bizim mövqeyimiz dəyişməzdir. Yəni sözümüz üstündə durmağı bacarırıq. Lakin erməni tərəfinə bel bağlamaq təhlükəlidir. Erməni saytlarında verilən məlumatlar çox ehtimallar doğurur. Belə ki, Ermənistanda sülh söhbəti açılan gecədən başlayaraq etiraz səsləri ucaldı. İrəvanı bürüyən bütün mitinqlərdə Azərbaycan, Ermənistan və Rusiya arasında əldə olunan 10 noyabr 2020-ci il tarixli razılaşmanın ləğv edilməsi tələb edilir. Şübhə yoxdur ki, çoxsaylı etiraz dalğası tədricən inqilabi hərəkata çevrilə bilər. İrəvanda sülh razılaşmasına öz narazılığını bəyan edən qüvvələr Baqramyan prospektini bağlayaraq,



kəskin çıxışlar edir və hökumətin istefasını irəli sürürlər. Əraziyə çoxsaylı polis qüvvələri cəlb edilsə də, etiraz mitinqləri səngimir. Saxta dini təfəkkür daşıyıcısı kimi nasist əməllər törədən Erməni Apostol Kilsəsi də etiraz edənlər arasındadır. Ermənistanda 17 siyasi partiyanın iştirakı ilə İrəvanın Azadlıq meydanında keçirilməsi nəzərdə tutulan aksiya təşkilatçılarının yaydığı bəyanatda deyilir: "Qarabağla bağlı sülh razılaşmasının imzalanması xəyanətdir. ...Dünən tariximizi ən biabırçı səhifəsi yazıldı. Cəbhədə torpaqları və dövlətçiliyi qanları ilə qoruyan əsgərlərin və hamımızın arxasından xain bir müqavilə imzalandı".

Göründüyü kimi, nasist ideologiyası ilə bütün dünyada aşkar və gizli surətdə qaniçənlik edən, psixoloji durumu nataraz olan yalan nəfəsli erməni insan kimi düşünmək iqtidarında deyil. Hər bir halda sözügedən sülh sənədində Rusiyanın öndərlik məsələsi var. Qəbul edilmiş razılaşma icrasız qalarsa, müzəffər yürüşümüzü başa çatdırmaqla bağlı heç bir problemimiz olmayacaq. Lakin Rusiyaya qarşı saymazlıq ermənilərə ağır bəlalar verə bilər. Necə deyərlər, bizim barmağımız tətikdədir. Sülh razılaşması pozulan andan müzəffər yürüşümüzün davamlı hərbi əməliyyatlarına dərhal start veriləcək.

Qarabağ cəngi ər işidir. Bu igidlik ermənilik deyil. Öz gücünə yox, özgələrə bel bağlayan qarı düşmən yəqin etdi ki, biz şərəfimizlə məzara girərik, amma düşmənə boyun əymərik. Şükürlər olsun ki, erməni işğalçıları üzərində nail olduğumuz qələbə sevinci xalq birliyimizi daha da möhkəmləndirdi. Zəfər savaşlarımızın ilk anlarından etibarən mübarək qələbə dəqiqələri qürur dolu qəlbimizdə döyünməkdədir. Sülh razılaşmasının öhdəlikləri tam başa çatdıqdan sonra dövlətimizin yeni inkişaf planlarının icrasına təkan veriləcək. Qarabağ çırağımız heç vaxt sönməyəcək. Qoy bütün dünya bilsin ki, ilahi həqiqətlərə istinadən səsləndirdiyimiz Qarabağ ədaləti kəskin qılınca bənzər, onu haqsız tutanın əli kəsilər

***İbrahim MƏSİMOĞLU***
***müharibə veteranı, ehtiyatda olan polkovnik-leytenant***